OXU ZALI

Azərbaycan Hüquqçular Assosiasiyası

67.401
A-99

# AZƏRBAYCAN BƏLƏDİYYƏLƏRİ:
## QANUNVERİCİLİK VƏ TƏCRÜBƏ

151
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

№ 5 (25)

Bakı - 2003

**Layihənin rəhbəri:** Ənnağı Hacıbəyli

**Tərtib edənlər:** Zülfiyyə Məmmədova
Aqil Abbasov

Bülleten Açıq Cəmiyyət İnstitutu – Yardım Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən «Bələdiyyələrə pulsuz hüquq xidməti göstərən regional mərkəzlərin yaradılması» layihəsi çərçivəsində nəşr olunub.

Bülletendə bələdiyyə qanunvericiliyi barədə müraciət edən şəxslərin sualları və onlara cavablar, bələdiyyələrin statusu haqqında Azərbaycan Hüquqçular Assosiasiyasının və yerli özünüidarənin vəziyyəti barədə «Mülki Cəmiyyətə doğru» Mərkəzin ekspert rəyi əks olunub.

***Sual***

*1 ilə yaxın bələdiyyə üzvü olmuşam. Yol qəzası nəticəsində uzun müddət xəstəxanada yatası oldum. İki ay keçmiş mənə bildirdilər ki, bələdiyyə sədri mənim səlahiyyətlərimə xitam verilməsi barədə əmr verib. Əmri də onunla əsaslandırıb ki, iki aydan artıq xəstəliklə əlaqədar səlahiyyətlərimi yerinə yetirə bilmədiyimə görə bələdiyyənin işləri lazımi qaydada getmir və buna görə də yeni üzvün cəlb edilməsinə ehtiyac var.*
*Bələdiyyə sədrinin əmri qanunidirmi?*

**Cavab:**

«Bələdiyyələrin Statusu haqqında» Qanunun 22- ci maddəsinin 4- cü bəndinə əsasən, dörd aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda bələdiyyə üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilə bilər. Bundan əlavə, göstərilən qanunun 23-cü maddəsinə əsasən belə əsaslar olduqda bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir. Ona görə də, bələdiyyə sədrinin əmri qanunsuzdur.

***Sual***

*Mən özəl firmada işləyirəm, həm də bələdiyyə üzvü olduğumdan bələdiyyənin daimi komissiyalarında iştirak etməliyəm. Bununla əlaqədar tez-tez öz daimi iş yerimdən ayrılmalı oluram. Bunun da nəticəsində işlədiyim firmanın müdiriyyəti mənimlə əmək müqaviləsini pozacağını və ya maaş verməyəcəyini deyir. Müdiriyyət nə dərəcədə haqdlıdır?*

**Cavab:**

Müdiriyyətin hərəkətləri qanunsuzdur. «Bələdiyyələrin statusu haqqında» Qanunun 15-ci maddəsinə əsasən, əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətini həyata keçirərkən istehsal və ya xidmət fəaliyyətini dayan-

dırmır. Bələdiyyə üzvü bələdiyyənin və tərkibinə seçildiyi daimi komissiyasının iclasları zamanı daimi iş yerində orta əmək haqqı saxlanılmaqla öz istehsal və ya xidmət vəzifəsini yerinə yetirməkdən azad edilir.

***Sual***

*Əlibayramlı şəhər bələdiyyəsi kimi fəaliyyət göstəririk. Lakin bələdiyyənin vəzifələrini və əhalinin problemlərini həll etmək üçün kifayət qədər maliyyə vəsaitimiz yoxdur. Buna görə də kənd təssərüfatı ilə məşğul olmaq istəyirik. Müstəqil surətdə fermer təsərrüfatı yarada bilərikmi, yoxsa, biz bu məqsəd üçün, başqa hüquqi şəxslərin təsisçilərindən biri olmalıyıq?*

**Cavab:**

«Bələdiyyələrin statusu haqqında» Qanunun 34-cü maddəsinə əsasən, bələdiyyələr təsərrüfat fəaliyyəti ilə və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər yarada bilər, onların yenidən təşkili və ləğvi məsələlərini həll edə bilərlər. Lakin Mülki Məcəllənin 64.6-cı maddəsinə əsasən, dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat ortaqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilməzlər.

«Normativ-hüquqi aktlar haqqında» Qanunun 7-ci maddəsinə əsasən normativ-hüquqi aktların tətbiqi zamanı eyni hüquqi qüvvəsi olan normativ-hüquqi aktlar arasında ziddiyyət olduqda isə daha sonra qüvvəyə minmiş normativ-hüquqi akt tətbiq olunur.

Mülki Məcəllə «Bələdiyyələrin statusu haqqında» Qanundan sonra qəbul edildiyindən onun müddəaları tətbiq edilməlidir. Bu isə o deməkdir ki, bələdiyyələr təsərrüfat fəaliyyəti ilə məşğul ola bilməzlər.

Qeyd etmək gərəkdir ki, bələdiyyələr təcrübədə bilavasitə və hüquqi şəxslər yaratmaqla təsərrüfat fəaliyyəti ilə məşğul olurlar.



***Sual***

*Bələdiyyə ərazisində bələdiyyə mülkiyyətində heç bir əmlak yoxdur, həmin ərazidə bələdiyyə yaradıla bilərmi?*

**Cavab:**

«Bələdiyyələrin statusu haqqında» Qanunun 54-cü maddəsinə əsasən bələdiyyə ərazisində bələdiyyə mülkiyyətinin olmaması bələdiyyə yaratmaqdan imtina edilməsinə əsas vermir.

***Sual***

*İcra hakimiyyəti orqanının qəbul etdiyi qərar nəticəsində bələdiyyənin büdcə gəliri azalmışdır. İcra hakimiyyəti orqanı bu qərarın çıxarılmasına görə məsuliyyət daşıyırmı?*

**Cavab:**

«Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Qanunun 6-cı maddəsinə əsasən, icra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində gəlirlərin azalması və ya xərclərinin artması baş verdikdə uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

***Sual***

*Bələdiyyə ilə hüquqi şəxs arasında podrat müqaviləsi bağlanmışdır. Lakin müqavilə lazımi qaydada icra edilməmişdir və bələdiyyənin hal-hazırda həmin hüquqi şəxsə borcu vardır. Lakin bələdiyyənin büdcəsində bu borcu ödəməyə kifayət qədər maliyyə vəsaiti yoxdur. Belə olan halda bələdiyyənin öhdəlikləri üçün dövlət məsuliyyət daşıyırmı?*

**Cavab:**

«Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Qanunun 6-cı maddəsinə əsasən yerli büdcələrin öhdəlikləri üçün dövlət məsuliyyət daşımır.

*Sual*

*Bələdiyyə üzvü barəsində ittiham hökmu çıxarılmışdır və icra olunması üçün bizim bələdiyyəyə göndərilmişdir. Həmin şəxs barəsində azadlıqdan şərti məhrum etmə cəzası təyin edilmişdir. Lakin həmin şəxs indi Azərbaycanda yoxdur. Həmin şəxsin iştirakı olmadan onun səlahiyyətlərinə xitam verilə bilərmi?*

**Cavab:**

Bəli. «Bələdiyyələrin statusu haqqında» Qanunun 21-ci maddəsinə əsasən, bələdiyyə üzvü barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü olduqda və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda onun səlahiyyətləri itirilmiş hesab olunur. Bu zaman bələdiyyə üzvünün səlahiyyətinin itirilməsi bələdiyyə iclasının sadə səs çoxluğu ilə qəbul etdiyi qərarı əsasında həll edilir. Bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir. Barəsində qərar qəbul edilən şəxsin bələdiyyə iclasında iştirakı vacib deyil.

*Sual*

*Mən Rusiya Federasiyasının vətəndaşıyam və uzun müddətdir ki, Azərbaycan Respublikasında yaşayıram. Bələdiyyə üzvü seçilə və ya seçkilərində iştirak edə bilərəmmi?*

**Cavab:**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 12-ci maddəsinə əsasən, 18 yaşına çatmış, müvafiq bələdiyyənin ərazisində 5 ildən az olmayaraq yaşayan xarici ölkənin vətəndaşları bələdiyyə seçkiləri zamanı səsvermədə iştirak edə bilərlər. Bələdiyyələrə üzv seçilmək hüququ isə Seçki Məcəlləsinin 212-ci maddəsinə əsasən yalnız Azərbaycan Respublikasının vətəndaşlarına məxsusdur.

*Sual*

*Bələdiyyə üzvüyəm, həm də müxalifət partiyasının üzvü-*



*yəm. Bununla bağlı bələdiyyənin sədri təzyiq göstərir, məni bələdiyyənin işlərində iştirak etməkdən çəkindirir. Hər hansı bir məsələ ilə bağlı bələdiyyənin icra aparatına sorğu ilə müraciət etdikdə heç bir cavab ala bilmirəm və nəticədə bələdiyyənin işlərindən kənarlaşır, onlardan xəbərsiz qalıram. Mən nə edə bilərəm?*

**Cavab:**

«Bələdiyyə üzvünün statusu haqqında» Qanunun 10-cu maddəsinə əsasən, bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz və səmərəli həyata keçirilməsinə, onun hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dövlət təminat verir. Bundan əlavə, göstərilən qanunun 5-ci maddəsinə əsasən, bələdiyyə üzvünün yerli məsələlərlə bağlı bələdiyyənin vəzifəli şəxslərinə, bələdiyyənin icra orqanlarına, bələdiyyə müəssisə, idarə və təşkilatlarına sorğu ilə müraciət etmək hüququ var.

Bələdiyyə üzvünün sorğusuna ən geci on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və yoxlanılması tələb edildiyi hallarda isə bir aydan gec olmayaraq cavab verilməlidir. Qanunun 7-ci maddəsinə əsasən bələdiyyə üzvlərinin bələdiyyə orqanlarının iclaslarında bələdiyyənin səlahiyyətlərinə aid məsələlərin müzakirəsində iştirak etmək hüququ vardır.

Qanunun bu müddəalarına əsasən siz bələdiyyənin vəzifəli şəxslərinin qanunsuz hərəkətlərindən məhkəməyə şikayət edə bilərsiniz.

*Sual*

*Fərdi yaşayış evi tikmək məqsədi ilə mənə torpaq sahəsinin verilməsi üçün bələdiyyəyə müraciət etmişəm. Bələdiyyə məndən torpaq üçün pul ödənilməsini tələb etdi. Bələdiyyənin tələbi qanunidirmi?*

**Cavab:**

Bəli. «Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında»

***Sual***

*Bələdiyyə üzvü barəsində ittiham hökmu çıxarılmışdır və icra olunması üçün bizim bələdiyyəyə göndərilmişdir. Həmin şəxs barəsində azadlıqdan şərti məhrum etmə cəzası təyin edilmişdir. Lakin həmin şəxs indi Azərbaycanda yoxdur. Həmin şəxsin iştirakı olmadan onun səlahiyyətlərinə xitam verilə bilərmi?*

**Cavab:**

Bəli. «Bələdiyyələrin statusu haqqında» Qanunun 21-ci maddəsinə əsasən, bələdiyyə üzvü barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü olduqda və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda onun səlahiyyətləri itirilmiş hesab olunur. Bu zaman bələdiyyə üzvünün səlahiyyətinin itirilməsi bələdiyyə iclasının sadə səs çoxluğu ilə qəbul etdiyi qərarı əsasında həll edilir. Bələdiyyənin qərarı məhkəmənin qüvvəyə minmiş qərarından sonra qəbul edilir. Barəsində qərar qəbul edilən şəxsin bələdiyyə iclasında iştirakı vacib deyil.

***Sual***

*Mən Rusiya Federasiyasının vətəndaşıyam və uzun müddətdir ki, Azərbaycan Respublikasında yaşayıram. Bələdiyyə üzvü seçilə və ya seçkilərində iştirak edə bilərəmmi?*

**Cavab:**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 12-ci maddəsinə əsasən, 18 yaşına çatmış, müvafiq bələdiyyənin ərazisində 5 ildən az olmayaraq yaşayan xarici ölkənin vətəndaşları bələdiyyə seçkiləri zamanı səsvermədə iştirak edə bilərlər. Bələdiyyələrə üzv seçilmək hüququ isə Seçki Məcəlləsinin 212-ci maddəsinə əsasən yalnız Azərbaycan Respublikasının vətəndaşlarına məxsusdur.

***Sual***

*Bələdiyyə üzvüyəm, həm də müxalifət partiyasının üzvüyəm. Bununla bağlı bələdiyyənin sədri təzyiq göstərir, məni bələdiyyənin işlərində iştirak etməkdən çəkindirir. Hər hansı bir məsələ ilə bağlı bələdiyyənin icra aparatına sorğu ilə müraciət etdikdə heç bir cavab ala bilmirəm və nəticədə bələdiyyənin işlərindən kənarlaşır, onlardan xəbərsiz qalıram. Mən nə edə bilərəm?*



**Cavab:**

«Bələdiyyə üzvünün statusu haqqında» Qanunun 10-cu maddəsinə əsasən, bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz və səmərəli həyata keçirilməsinə, onun hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dövlət təminat verir. Bundan əlavə, göstərilən qanunun 5-ci maddəsinə əsasən, bələdiyyə üzvünün yerli məsələlərlə bağlı bələdiyyənin vəzifəli şəxslərinə, bələdiyyənin icra orqanlarına, bələdiyyə müəssisə, idarə və təşkilatlarına sorğu ilə müraciət etmək hüququ var.

Bələdiyyə üzvünün sorğusuna ən geci on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və yoxlanılması tələb edildiyi hallarda isə bir aydan gec olmayaraq cavab verilməlidir. Qanunun 7-ci maddəsinə əsasən bələdiyyə üzvlərinin bələdiyyə orqanlarının iclaslarında bələdiyyənin səlahiyyətlərinə aid məsələlərin müzakirəsində iştirak etmək hüququ vardır.

Qanunun bu müddəalarına əsasən siz bələdiyyənin vəzifəli şəxslərinin qanunsuz hərəkətlərindən məhkəməyə şikayət edə bilərsiniz.

***Sual***

*Fərdi yaşayış evi tikmək məqsədi ilə mənə torpaq sahəsinin verilməsi üçün bələdiyyəyə müraciət etmişəm. Bələdiyyə məndən torpaq üçün pul ödənilməsini tələb etdi. Bələdiyyənin tələbi qanunidirmi?*

**Cavab:**

Bəli. «Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında»

kiyyətə, istifadəyə və icarəyə verilməsinə yol verilmir.

***Sual***

*Kommersiya fəaliyyəti ilə məşğul oluram. Sex tikmək üçün bələdiyyə ərazisindən torpaq almaq istəyirəm. Lakin bələdiyyədən bildirdilər ki, sahibkar olduğumdan, torpaq sahəsi yalnız icarəyə verilə bilər. Bələdiyyə haqlıdırmı?*

**Cavab:**

Xeyr. «Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında» Qanunun 7-ci maddəsinə əsasən xüsusi mülkiyyətə verlən bələdiyyə torpaqları mülkiyyətində torpaq sahəsinin olub-olmamasından asılı olmayaraq, haqqı ödənilməklə sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə verilir. Bu müddəaya uyğun olaraq bələdiyyə sizə xüsusi mülkiyyətə torpaq verə bilər.

***Sual.***

*Qarabağ müharibəsi veteranıyam. Bələdiyyəyə torpaq vergisinin ödənilməsində bu əsasla hər hansı güzəşt nəzərdə tutulurmu?*

**Cavab:**

Bəli. «Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında» Qanunun 18.9-cu maddəsinə əsasən, müharibə veteranlarının mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği aylıq gəlirin vergi tutulmayan məbləğinin 50 faizi qədər azaldılır. Torpaq vergisinə belə güzəştlər tətbiq edilən şəxslərin mülkiyyətində ayrıca qeydiyyata alınmış iki və daha çox torpaq sahəsi olarsa, vergi güzəştləri mülkiyyətçinin arzusu ilə bu sahələrin birinə, yaşayış fondlarının torpaqlarında isə həmin şəxsin yaşayış yeri üzrə qeydiyyatda olduğu evin, habelə həyatyanı sahənin altında olan torpağa şamil edilir.



## Bələdiyyələrin statusu haqqında

Bələdiyyələr hüquqi dövlət və vətəndaş cəmiyyətinə doğru inkişaf xətti götürən Azərbaycanın yeni reallıqlarındandır. Yerli özünüidarə demokratik inkişaf yolunu tutmuş ölkələrdə bu və ya başqa formada uzun illərdir ki, mövcuddur. Bizdə yerli özünüidarənin hüquqi əsası 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya ilə yaradılmışdır. Konstitusiyada yerli özünüidarəetməyə ayrıca – 4-cü bölmə ayrılmışdır. Bu bölmədə yerli özünüidarənin təşkili, səlahiyyətləri, qərarları və müstəqilliyinin təminatı məsələləri nizama salınır.

Konstitusiyanın «Keçid müddəaları»nın 7-ci bəndinə uyğun olaraq, Konstitusiya qüvvəyə mindikdən sonra iki il müddətində yerli özünüidarə haqqında qanun qəbul edilməli və bələdiyyələrə seçkilər keçirilməli idi. Bildiyiniz kimi, Konstitusiyanın bu göstərişinə uyğun olaraq, bələdiyyələr haqqında qanunun qəbul edilməsi və bələdiyyələrə seçkilər keçirilməsi 1997-ci il noyabrın 27-dək başa çatmalı idi. Lakin həm qanunun qəbulu, həm də seçkilər yalnız 1999-cu ilin sonlarına yaxın baş tutdu.

Konstitusiyanın qəbulundan bələdiyyələrə seçkilər keçirilənədək və ondan sonra da bələdiyyələrin formalaşması, fəaliyyəti və inkişafının müxtəlif aspektlərini əhatə edən çoxlu sayda qanunvericilik aktları qəbul edilmişdir. Buraya «Yerli rəy sorğusu haqqında», «Bələdiyyə qulluğu haqqında», «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında», «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» və s. qanunları aid etmək olar. Qanunvericilik aktlarının qəbulu prosesi bu gün də davam edir.

Bələdiyyələrin statusundan danışarkən ilk növbədə Konstitusiyanı qeyd etmək lazımdır. Yeri gəlmişkən, 2003-cü il avqustun 24-də keçirilən referendumla Konstitusiyanın 142-ci maddəsinin 3-cü bəndi yeni redaksiyada verilmişdir. Köhnə redaksiyada nəzərdə tutulurdu ki, bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu qanunla müəyyən edilir. Lakin 24 avqust referendumundan sonra, bələdiyyələrin statusunun əsaslarının Konstitusiya ilə

müəyyən olunması qərara alındı.

Konstitusiyanın 142-ci maddəsində göstərilir ki, yerli özünüidarəni bələdiyyələr həyata keçirir və bələdiyyələr seçkilər əsasında formalaşır.

144-cü maddədə bələdiyyələrin səlahiyyəti göstərilir və Konstitusiyaya görə, bələdiyyələr aşağıdakı səlahiyyətləri həyata keçirirlər:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

2) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

3) bələdiyyə sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

4) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

5) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

6) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9) yerli ekoloji proqramların qəbul və icra edilməsi.

Sadalananlarla bələdiyyələrin səlahiyyəti bitmir. 144-ci maddənin 2-ci bəndi qanunvericlik və icra hakimiyyətləri tərəfindən bələdiyyələrə əlavə səlahiyyətlər verilməsi və belə səlahiyyətlərin həyata keçirilməsi zamanı zəruri maliyyə vəsaitinin ayrılması imkanını da yaradır.

Konstitusiya bələdiyyələrin müstəqilliyini və normal fəaliyyətini təmin edən qarantiyalar da müəyyən edib. Konstitusiyanın 146-cı maddəsində bələdiyyələrin məhkəmə müdafiəsi və dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərin ödənilməsi təminatı öz əksni tapıb.

Bundan başqa, Azərbaycan Respublikası 1985-ci il 15 oktyabr tarixli «Yerli özünüidarəetmə haqqında» Avropa Xartiyasını da ratifikasiya etmişdir. Xartiyanın məqsədi hökumətlərin yerli demokratiyanı inkişaf etdirmək səylərini həvəsləndirmək yolu ilə Avropa ölkələrinin yerli və regional hakimiyyətlirinin siyasi, inzibati və maliyyə muxtariyyətini müdafiə etmək və onlara yardımçı olmaqdır.

Xartiyanın 2-ci maddəsində qeyd olunur ki, yerli özünüidarənin prinsipi ölkənin qanunvericiliyində və imkan daxilində ölkənin konstitusiyasında tanınmalıdır. Yuxarıda qeyd etdiyimiz kimi, bu, artıq Konstitusiyamızda əksini tapıb. Bundan başqa, Xartiyada nəzərdə tutulan bir çox prinsiplər də Konstitusiyada əks olunur. Xartiyanın mühüm özəlliklərindən biri (12-ci maddəsi «Öhdəliklər») ondan ibarətdir ki, onu imzalayan tərəflər Xartiyanın yerli özünüidarənin prinsiplərini müəyyən edən 1-ci hissəsinin ən azı iyirmi bəndinə əməl etməyi öhdələrinə götürürlər. Üstəlik, bu bəndlərin ən azı 10-u yerli özünüidarənin təməlini təşkil edən ən mühüm aspektləri əhatə etməlidir. Məsələn, yerli özünüidarənin prinsipi ölkə qanunvericiliyində və konstitusiyada təsbit olunmalıdır, yerli öüzünüidarə hüququ azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət olan şuralar və yığıncaqlar tərəfindən həyata keçirilməlidir, yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər bir qayda olaraq tam və müstəsna olmalıdır və s.

Bələdiyyələrin hüquqi vəziyyətini nizama salan xüsusi qanun «Bələdiyyələrin statusu haqqında» Qanundur. Bu Qanun (1999-cu il 2 iyul) bələdiyyələrlə bağlı qəbul olunan ilk sənəddir.

Qanunun 1-ci maddəsində yerli özünüidarənin belə bir anlayışı verilir: yerli özünüidarə vətəndaşların fəaliyyətinin elə bir qeyri-dövlət sistemidir ki, bu sistem qanun çərçivəsində onlara yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək imkanı verir. Prinsipcə eyni anlayış «Yerli özünüidarəetmə haqqında» Avropa Xartiyasında da əks olunub. Xartiyanın 3-cü maddəsində yerli özünüidarə yerli özünüidarə orqanlarının qanun çərçivəsində, məsuliyyəti öz üzə-

rinə götürərək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin böyük bir hissəsini nizama salmaq və onu idarə etmək hüququ və real bacarığı kimi xarakterizə olunur.

Ümumiyyətlə, anlayışlardan da göründüyü kimi, yerli özünüidarənin əsas fəlsəfəsi ondan ibarətdir ki, yerli əhəmiyyətli problemləri, bu problemlərin həlli yollarını, həmin yerdə yaşayan əhali heç bir dövlət orqanına müraciət etmədən həll etsin, yerli inkişaf tədbirlərini müstəqil müəyyən etsinlər. Birincisi, yerli problemləri, onun həlli yollarını yerli əhali daha yaxşı bilir. Buraya yerli şərait, əhalinin tarixi adət-ənənələri də daxildir. İkincisi, bu sahədə qərarların qəbulu yerli səviyyədə daha operativ həyata keçirilir. Üçüncüsü, dövləti əlavə qayğılardan azad edir.

Qanuna görə bələdiyyələr müəyyən ərazi hüdudları daxilində yerli özünü idarə formasıdır.

Qanunun 4-cü maddəsinə uyğun olaraq, bələdiyylər dövlətin müəyyən etdiyi sosial təminatdan başqa, əlavə sosial təminatlar da müəyyən edə bilər. Burada əsas məqsəd dövlətin həyata keçirdiyi eyni tipli proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Bu proqramlar bələdiyyə səviyyəsində bütün sahələri əhatə edə bilər. Məsələn, təhsil, səhiyyə, mədəniyyət, idman, mənzil tikintisi və s.

Bələdiyyələr dövlətin həyata keçirdiyi iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq aqrar, sənaye, rabitə nəqliyyat və başqa sahələri əhatə edən yerli iqtisadi inkişaf proqramları müəyyən etməkdə sərbəstdirlər. Qanun (5-ci maddə) buna imkan verir.

Həmçinin, bələdiyyələr yerli ekoloji proqramları da eyni məqsədlə həyata keçirə bilərlər.

Bələdiyyələr öz fəaliyyətlərini əlaqələndirmək üçün ittifaqlar və başqa birlik formalarında birləşə bilərlər.

Bələdiyyə ərazilərinin müəyyənləşdirilməsi və dəyişdirilməsi, o cümlədən bələdiyyələr təşkil edilərkən, birləşərkən, ləğv olunarkən və s. hallarda yerli sosial-iqtisadi vəziyyət, tarixi və



başqa xüsusiyyətlər və yerli əhalinin rəyi nəzərə alınır. Yalnız bundan sonra bu məsələlər qanunla müəyyən edilir.

Bələdiyyələrin say tərkibi «Seçki Məcəlləsi» ilə müəyyən olunur və bələdiyyələr nizamnamələrinə uyğun olaraq öz orqanlarını yaradır.

Bələdiyyələr dövlət oranları sisteminə daxil deyil, öz növbəsində dövlət orqanları da yerli özünüidarəni həyata keçirə bilməzlər.

Bələdiyyələr bələdiyyə üzvlərindən ibarət özünüidarə orqanı olduğu üçün bələdiyyə üzvlərinin hüquqi vəziyyəti, onların hüquq və vəzifələri də az əhəmiyyət kəsb etmir. Bələdiyyə üzvlərinin qanunvericiliklə təsbit olunmuş hüquq və vəzifələri, onların real olaraq həyata keçirilməsi imkanı bütövlükdə ölkədə yerli özünüidarənin vəziyyətini əks etdirir. Bu status həm «Bələdiyyələrin statusu haqqında», həm də «Bələdiyyə üzvünün statsu haqqında» Qanunlarla nizama salınır.

Əsas işi yeri bələdiyyə olan üzv əmək haqqını da bələdiyyədən alır. Əsas iş yeri bələdiyyə olmayan bələdiyyə üzvü səlahiyyətlərini həyata keçirərkən hər hansı istehsal və ya xidməti fəaliyyətini dayandırmır, bələdiyyə komissiyasının iclasları zamanı əmək haqqı saxlanmaqla xidməti vəzifəsini yerinə yetirməkdən azad edilir.

Bələdiyyə üzvünün daha bir təminatı əmək müqaviləsi ilə işlədiyi yerdə bələdiyyənin və ya onun sədrinin razılığı olmadan müdiriyyətin təşəbbüsü ilə işdən çıxarıla bilməz, intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz. Bələdiyyə üzvünün öz səlahiyyətlərini mancəsiz və səmərəli həyata keçirmək hüququ, dövlət orqanlarına, onların vəzifəli şəxslərinə, siyasi partiyalara, ictimai birliklərə, həmkarlar təşkilatına müraciət etmək hüquqları vardır. Qanunvericilikdə bələdiyyə üzvünə hərbi xidmətə çağırışdan möhlət hüququnun da verilməsi düzgün olardı. Təəssüf ki, bu imtiyaz bələdiyyə üzvlərinə verilmir.

Bələdiyyə üzvlərinə xəbərdarlıq, sözkəsmə, iclas zalından çıxarma, töhmət və səlahiyyətlərinə xitam verilməsi kimi intizam

tədbirləri tətbiq oluna bilər.

«Bələdiyyələrin statusu haqqında» Qanunun 21-ci maddəsinə görə bələdiyyə üzvləri səlahiyyətlərini aşağıdakı hallarda itirirlər:

- barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;
- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;
- Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;
- vəfat etdikdə;
- məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Qanunun 22-ci maddəsində bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsi əsasları göstərilir. Bunlar aşağıdakılardır:

- bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;
- öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;
- bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilən tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;
- qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda;
- dörd aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;
- bələdiyyənin nizamnaməsində göstərilən müddətdə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda.

Bələdiyyənin cari fəaliyyətinə, icra aparatına rəhbərliyi onun sədri həyata keçirir. Bələdiyyənin hər bir üzvünün sədr seçilmək hüququ var. Odur ki, bələdiyyə sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından üzvlərin



yarısından çoxunun səsini aldıqda seçilir. Zərurət olarsa, sədrin müavinləri də ola bilər. Müavinlər də eyni qaydada – üzvlərin yarıdan çox səsini topladıqda seçilir. Sədr və müavinlər eyni qaydada azad olunurlar.

Bələdiyyələrdə fəaliyyət göstərən daha bir qrup şəxs isə bələdiyyə qulluqçusu adlanır ki, bu şəxslər də yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutur və ödənişli əsaslarla xidmət göstərirlər. Xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərləri bələdiyyə qərarına əsasən, başqa qullçuları isə bələdiyyə sədri birbaşa təyin edir. Qanunvericilik bələdiyyə üzvləri ilə yanaşı, bələdiyyə qulluqçları üçün də bir sıra hüquqlar və vəzifələr müəyyən etmişdir. Bələdiyyə qulluqçuları qanunverici, icra və məhkəmə orqanlarında vəzifə tuta bilməzlər və vəzifəsinin icrası ilə bağlı ona məlum olan faktlardan xidməti vəzifədən kənar məqsədlər üçün istifadə edə bilməzlər. Bələdiyyə qulluqçularının iş vaxtı, məzuniyyəti, pensiyaları və başqa sosial təminatları qanunvericiliklə nizama salınır. Bələdiyyə qulluqçularının bələdiyyələrin maliyyə imkanları daxilində əlavə olaraq kompensasiyalar, ödənişlər və müavinətlər almaq hüququ vardır. Həmçinin bələdiyyələrin nizamnaməsində onlara başqa imtiyazlar da verilə bilər. Bələdiyyə qulluqçularının səlahiyyət müddəti bələdiyyə üzvlərinin səlahiyyəti ilə məhdudlaşdırılmır.

Bələdiyyələrin fəaliyyətinin daha bir mühüm istiqaməti yerli əhəmiyyətli məsələlərə dair yerli rəy sorğusu keçirməkdir. Bu, həm də yerli əhəmiyyətli məsələlər barədə vətəndaşların öz iradəsini birbaşa ifadə etmə formalarından biridir. Yerli rəy sorğusu haqqında qərarı bələdiyyə öz təşəbbüsü və ya əhalinin (10%) tələbi əsasında təyin edir. Yerli rəy sorğusuna qanunvericiliklə qadağan olunan məsələlər istisna olmaqla, yerli əhəmiyyətli istənilən məsələlər çıxarıla bilər. Məsələn, bələdiyyələrin səlahiyyətinə aid edilməmiş məsələlər, bələdiyyənin rayon və şəhər inzibati ərazi tərkibindən çıxmaq, muxtariyyət elan etmək, dövlətin müəyyən etdiyi sərhədləri dəyişdirmək və bu tipli başqa



151
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

tədbirləri tətbiq oluna bilər.

«Bələdiyyələrin statusu haqqında» Qanunun 21-ci maddəsinə görə bələdiyyə üzvləri səlahiyyətlərini aşağıdakı hallarda itirirlər:

- barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;
- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;
- Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;
- vəfat etdikdə;
- məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Qanunun 22-ci maddəsində bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsi əsasları göstərilir. Bunlar aşağıdakılardır:

- bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;
- öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;
- bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilən tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;
- qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda;
- dörd aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;
- bələdiyyənin nizamnaməsində göstərilən müddətdə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda.

Bələdiyyənin cari fəaliyyətinə, icra aparatına rəhbərliyi onun sədri həyata keçirir. Bələdiyyənin hər bir üzvünün sədr seçilmək hüququ var. Odur ki, bələdiyyə sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından üzvlərin



yarısından çoxunun səsini aldıqda seçilir. Zərurət olarsa, sədrin müavinləri də ola bilər. Müavinlər də eyni qaydada – üzvlərin yarıdan çox səsini topladıqda seçilir. Sədr və müavinlər eyni qaydada azad olunurlar.

Bələdiyyələrdə fəaliyyət göstərən daha bir qrup şəxs isə bələdiyyə qulluqçusu adlanır ki, bu şəxslər də yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutur və ödənişli əsaslarla xidmət göstərirlər. Xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərləri bələdiyyə qərarına əsasən, başqa qullçuları isə bələdiyyə sədri birbaşa təyin edir. Qanunvericilik bələdiyyə üzvləri ilə yanaşı, bələdiyyə qulluqçları üçün də bir sıra hüquqlar və vəzifələr müəyyən etmişdir. Bələdiyyə qulluqçuları qanunverici, icra və məhkəmə orqanlarında vəzifə tuta bilməzlər və vəzifəsinin icrası ilə bağlı ona məlum olan faktlardan xidməti vəzifədən kənar məqsədlər üçün istifadə edə bilməzlər. Bələdiyyə qulluqçularının iş vaxtı, məzuniyyəti, pensiyaları və başqa sosial təminatları qanunvericiliklə nizama salınır. Bələdiyyə qulluqçularının bələdiyyələrin maliyyə imkanları daxilində əlavə olaraq kompensasiyalar, ödənişlər və müavinətlər almaq hüququ vardır. Həmçinin bələdiyyələrin nizamnaməsində onlara başqa imtiyazlar da verilə bilər. Bələdiyyə qulluqçularının səlahiyyət müddəti bələdiyyə üzvlərinin səlahiyyəti ilə məhdudlaşdırılmır.

Bələdiyyələrin fəaliyyətinin daha bir mühüm istiqaməti yerli əhəmiyyətli məsələlərə dair yerli rəy sorğusu keçirməkdir. Bu, həm də yerli əhəmiyyətli məsələlər barədə vətəndaşların öz iradəsini birbaşa ifadə etmə formalarından biridir. Yerli rəy sorğusu haqqında qərarı bələdiyyə öz təşəbbüsü və ya əhalinin (10%) tələbi əsasında təyin edir. Yerli rəy sorğusuna qanunvericiliklə qadağan olunan məsələlər istisna olmaqla, yerli əhəmiyyətli istənilən məsələlər çıxarıla bilər. Məsələn, bələdiyyələrin səlahiyyətinə aid edilməmiş məsələlər, bələdiyyənin rayon və şəhər inzibati ərazi tərkibindən çıxmaq, muxtariyyət elan etmək, dövlətin müəyyən etdiyi sərhədləri dəyişdirmək və bu tipli başqa

151



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

tədbirləri tətbiq oluna bilər.

«Bələdiyyələrin statusu haqqında» Qanunun 21-ci maddəsinə görə bələdiyyə üzvləri səlahiyyətlərini aşağıdakı hallarda itirirlər:

- barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;
- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;
- Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;
- vəfat etdikdə;
- məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Qanunun 22-ci maddəsində bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsi əsasları göstərilir. Bunlar aşağıdakılardır:

- bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;
- öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;
- bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilən tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;
- qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda;
- dörd aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;
- bələdiyyənin nizamnaməsində göstərilən müddətdə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda.

Bələdiyyənin cari fəaliyyətinə, icra aparatına rəhbərliyi onun sədri həyata keçirir. Bələdiyyənin hər bir üzvünün sədr seçilmək hüququ var. Odur ki, bələdiyyə sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında bələdiyyə üzvləri sırasından üzvlərin



yarısından çoxunun səsini aldıqda seçilir. Zərurət olarsa, sədrin müavinləri də ola bilər. Müavinlər də eyni qaydada – üzvlərin yarıdan çox səsini topladıqda seçilir. Sədr və müavinlər eyni qaydada azad olunurlar.

Bələdiyyələrdə fəaliyyət göstərən daha bir qrup şəxs isə bələdiyyə qulluqçusu adlanır ki, bu şəxslər də yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutur və ödənişli əsaslarla xidmət göstərirlər. Xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərləri bələdiyyə qərarına əsasən, başqa qullçuları isə bələdiyyə sədri birbaşa təyin edir. Qanunvericilik bələdiyyə üzvləri ilə yanaşı, bələdiyyə qulluqçları üçün də bir sıra hüquqlar və vəzifələr müəyyən etmişdir. Bələdiyyə qulluqçuları qanunverici, icra və məhkəmə orqanlarında vəzifə tuta bilməzlər və vəzifəsinin icrası ilə bağlı ona məlum olan faktlardan xidməti vəzifədən kənar məqsədlər üçün istifadə edə bilməzlər. Bələdiyyə qulluqçularının iş vaxtı, məzuniyyəti, pensiyaları və başqa sosial təminatları qanunvericiliklə nizama salınır. Bələdiyyə qulluqçularının bələdiyyələrin maliyyə imkanları daxilində əlavə olaraq kompensasiyalar, ödənişlər və müavinətlər almaq hüququ vardır. Həmçinin bələdiyyələrin nizamnaməsində onlara başqa imtiyazlar da verilə bilər. Bələdiyyə qulluqçularının səlahiyyət müddəti bələdiyyə üzvlərinin səlahiyyəti ilə məhdudlaşdırılmır.

Bələdiyyələrin fəaliyyətinin daha bir mühüm istiqaməti yerli əhəmiyyətli məsələlərə dair yerli rəy sorğusu keçirməkdir. Bu, həm də yerli əhəmiyyətli məsələlər barədə vətəndaşların öz iradəsini birbaşa ifadə etmə formalarından biridir. Yerli rəy sorğusu haqqında qərarı bələdiyyə öz təşəbbüsü və ya əhalinin (10%) tələbi əsasında təyin edir. Yerli rəy sorğusuna qanunvericiliklə qadağan olunan məsələlər istisna olmaqla, yerli əhəmiyyətli istənilən məsələlər çıxarıla bilər. Məsələn, bələdiyyələrin səlahiyyətinə aid edilməmiş məsələlər, bələdiyyənin rayon və şəhər inzibati ərazi tərkibindən çıxmaq, muxtariyyət elan etmək, dövlətin müəyyən etdiyi sərhədləri dəyişdirmək və bu tipli başqa

151
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin KİTABXANASI

məsələlər yerli rəy sorğusuna çıxarıla bilməz. Bundan başqa, bir sıra hallar da vardır ki, məsələn hərbi, yaxud fövqəladə vəziyyət elan olunan gündən və ya bu vəziyyətlər qurtardıqdan sonra 3 ay ərzində yerli sorğusu təyin edilə və keçirilə bilməz. Yerli rəy sorğusunun nəticələrinin dərc edildiyi gündən bir il müddətində həmin məsələ ilə əlaqədar təkrar yerli rəy sorğusu keçirilə bilməz. Yerli əhalinin öz iradəsini birbaşa ifadə etməsi formalarına, həmçinin əhalisi 500 nəfərdən az olan bələdiyyələrdə vətəndaşların yığıncaqlarını, bələdiyyə aktları yaratmaq təşəbbüsü ilə çıxış etmələrini göstərmək olar. Həmçinin, vətəndaşlar bu hüququ məhəllə komitələri, assosiasiyalar, xeyriyyə təşkilatları formasında da həyata keçirə bilərlər.

«Bələdiyyələrin statusu haqqında» Qanunun 5-ci fəsli yerli özünüidarənin iqtisadi əsasların müəyyən edir, bələdiyyə mülkiyyəti və onun formalaşması mənbəyini göstərir. Qanun 34-cü maddəsi bələdiyyələrin hüquqi şəxs yaratmaq hüququndan bəhs edir. Bu məsələylə bağlı bir qədər ziddiyyətli məqamlar var. Belə ki, Qanunun bu göstərişi Mülki Məcəllənin 64.6-cı maddəsinə ziddir. MM-in bu maddəsində deyilir ki, dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçısı kimi çıxış edə bilməzlər.

Bələdiyyələr başqa hüquqi və fiziki şəxslərlə münasibətlərini müqavilə əsasında qurmalı, bələdiyyə ərazisində sosial-iqtisadi inkişafla bağlı onların iştirakını əlaqələndirməlidir. Bələdiyyələr sifarişçi kimi çıxış edərək, zəruri məhsulların istehsalını, xidmətlərin göstərilməsini sifariş edə bilərlər.

Bələdiyyələr yeri əhalinin mənafeyi üçün xarici iqtisadi fəaliyyətlə məşğul ola bilərlər.

Bələdiyyələr ayrı-ayrı dövlət səlahiyyətlərini həyata keçirmək üçün zəruri maliyyə vəsaiti ilə hər il Dövlət büdcəsi hesabına maliyyələşdirilirlər. Dövlət orqanlarının qəbul etdikləri qərarlar nəticəsində bələdiyyənin məxarici artıb mədaxili azalarsa, həmin qərarı qəbul etmiş orqanlar kompensasiya ödəyirlər.

Bələdiyyələr qanunvericiliklə müəyyənləşdirilmiş qaydada



və şərtlərlə məqsədli büdcədənkənar fondlar yarada bilər, bələdiyyə lotoreyaları buraxa, kreditlər alıb-verə, bələdiyyə bankları yarada bilərlər.

Qanun yerli özünüidarənin hüquqi təminatlarını da müəyyən edir. Qanuna görə yerli özünüidarənin Konstitusiya və qanunlarla müəyyən edilmiş hüquqları məhdudlaşdırıla bilməz. Bu hüquq yalnız Konstitusiya quruluşunun qorunması, ölkənin müdafiəsinin və dövlət təhlükəsizliyinin təmin edilməsi məqsədilə qanunla müəyyən müddətə məhdudlaşdırıla bilər.

Bələdiyyənin qərarlarını bələdiyyə ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər icra etməlidirlər. Bələdiyyələrin məhkəmə müdafiəsi qanunla təmin olunur. O cümlədən bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri hüquqa zidd hərəkətlərə və hərəkətsizliyə görə məsuliyyət daşıyırlar. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət həyata keçirilir. Bu nəzarət 2003-cü il 13 may tarixli «Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında» Qanunla nizama salınır.

**Aqil Abbasov**

## Azərbaycanda yerli özünüidarəetmənin vəziyyəti barədə rəy

Artıq dörd ilə yaxındır ki, Azərbaycanda yerli özünüidarəetmə orqanları – bələdiyyələr fəaliyyət göstərir. Bu müddət bələdiyyələrin fəaliyyəti ilə bağlı müəyyən araşdırmalar aparmağa və bu təsisatın inkişaf perspektivini qiymətləndirməyə imkan verir.

İlk növbədə qeyd edək ki, bu günə qədər bələdiyyələrin fəaliyyətinin hüquqi bazasını təşkil edən 20-dən artıq qanun qəbul edilib. Bir sıra bələdiyyələr qüvvədə olan normativ-hüquqi bazanın imkanlarından istifadə edərək yerli əhəmiyyətli məsələlərin həllində müəyyən uğurlar əldə edə biliblər. Bələdiyyələrin fəaliyyətə başlamasından ötən dövr ərzində dövlət yerli özünüidarəetmə təsisatlarının inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirib: bələdiyyələrə dotasiyalar ayrılıb, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş və Bələdiyyələrə metodoloji yardım Mərkəzi bələdiyyə üzvləri üçün tədris kursları təşkil edib və s. Son dövrlər beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının bələdiyyələrə marağı əhəmiyyətli dərəcədə artıb. Artıq cəmiyyətdə bələdiyyə institutunun demokratik idarəetmənin əsas formalarından və vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli vasitələrdən biri olması fikri iki il bundan öncəki dövrlə müqayisədə xeyli möhkəmlənib.

Lakin sadalanan bütün bu müsbət meyllərlə yanaşı, Azərbaycanda yerli özünüidarəetmə orqanlarının mövcud fəaliyyəti və arzuolunan perspektivi ilə bağlı ciddi problemlər qalmaqdadır. Həmin problemləri aşağıdakı kimi sistemləşdirmək olar:

Birincisi, bələdiyyələr Azərbaycanda yeni təsisatlardır və yerli özünüidarəetmə təcrübəsinin olmaması obyektiv olaraq bir sıra çətinliklər ortaya çıxarır. İlk növbədə qeyd edək ki, 1999-cu il dekabrın 12-də keçirilən seçkilər ərəfəsində seçicilərdə yerli özünüidarəetmənin mahiyyəti haqqında məlumatın olmaması onların obyektiv seçim imkanlarını məhdudlaşdırıb və nəticədə bələdiyyələrə xeyli sayda təsadüfi adamların seçilməsinə gətirib çıxarıb. Bundan əlavə, yerli özünüidarəetmə təcrübəsinin olmaması bələdiyyə üzvlərinin seçildiyi andan öz səlahiyyətlərindən tam şəkildə istifadə etməsini çətinləşdirib və yeni idarəçilik vərdişlərinə yiyələnmə müəyyən qədər vaxt aparıb.

İkincisi, bələdiyyələrin fəaliyyətini nizama salan xeyli sayda normativ-hüquqi aktın qəbul edilməsinə baxmayaraq, bu sahədəki hüquqi bazanı tam təkmil hesab etmək olmaz. Bələdiyyələrin normal fəaliyyətinə mane olan bir sıra problemlər qanunvericilikdən irəli gəlir. Belə ki, mövcud qanunvericilik bələdiyyələrin fəaliyyəti ilə bağlı münasibətləri lazımi səviyyədə tənzimləmək gücündə deyil. Qəbul olunmuş qanunvericilik aktlarının bir sıra normaları deklorativ xarakter daşıdığından onların icrasını təmin etmək həmişə mümkün olmur. Mövcud qanunvericilik bələdiyyələrlə yerli icra hakimiyyətləri arasında səlahiyyətlər bölgüsündə də konkretlik müəyyən etməmişdir. Bələdiyyələrin maliyyə-iqtisadi əsasları, bələdiyyə mülkiyyəti, yerli vergilər və s. məsələlərlə bağlı münasibətləri nizama salan qanunvericilik aktlarında da bir çox normalar konkret xarakter daşımır. Həmin qanunlarda öz əksini tapan bəzi prinsipial məsələlər qeyri-myəyyən olaraq qalır. Qanunvericilik aktlarındakı ziddiyyətli normalar və mövcud boşluqlar da təcrübədə çətinliklər yaradır.

Üçüncüsü, bələdiyyələrin normal fəaliyyətinə mane olan digər ciddi problem bu qurumların maliyyə-iqtisadi əsasları ilə bağlıdır. Aparılmış müşahidələr və təhlillər göstərir ki, bu gün bələdiyyələrin tam işlək idarəetmə orqanlarına çevrilə bilməməsinin başlıca səbəblərindən biri məhz onların maliyyə-iqtisadi əsaslarının xeyli zəif olması ilə bağlıdır. Faktlar göstərir ki, bu gün əksər bələdiyyələrdə bələdiyyənin mülkiyyətində torpaqdan və cüzi əmlakdan başqa heç bir mülkiyyət yoxdur. Bəzi bələdiyyələrin isə ümumiyyətlə, öz balansında olan inzibati binası belə yoxdur. Bələdiyyələrə torpaq payı ayrılsa da, həmin torpaqlara mülkiyyət hüququnu təsdiq edən sənədlərin verilməsi ilə bağlı problemlər qalmaqdadır. Əksər bələdiyyələrdə yerli büdcənin de-

## Azərbaycanda yerli özünüidarəetmənin vəziyyəti barədə rəy

Artıq dörd ilə yaxındır ki, Azərbaycanda yerli özünüidarəetmə orqanları – bələdiyyələr fəaliyyət göstərir. Bu müddət bələdiyyələrin fəaliyyəti ilə bağlı müəyyən araşdırmalar aparmağa və bu təsisatın inkişaf perspektivini qiymətləndirməyə imkan verir.

İlk növbədə qeyd edək ki, bu günə qədər bələdiyyələrin fəaliyyətinin hüquqi bazasını təşkil edən 20-dən artıq qanun qəbul edilib. Bir sıra bələdiyyələr qüvvədə olan normativ-hüquqi bazanın imkanlarından istifadə edərək yerli əhəmiyyətli məsələlərin həllində müəyyən uğurlar əldə edə biliblər. Bələdiyyələrin fəaliyyətə başlamasından ötən dövr ərzində dövlət yerli özünüidarəetmə təsisatlarının inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirib: bələdiyyələrə dotasiyalar ayrılıb, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş və Bələdiyyələrə metodoloji yardım Mərkəzi bələdiyyə üzvləri üçün tədris kursları təşkil edib və s. Son dövrlər beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının bələdiyyələrə marağı əhəmiyyətli dərəcədə artıb. Artıq cəmiyyətdə bələdiyyə institutunun demokratik idarəetmənin əsas formalarından və vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli vasitələrdən biri olması fikri iki il bundan öncəki dövrlə müqayisədə xeyli möhkəmlənib.

Lakin sadalanan bütün bu müsbət meyllərlə yanaşı, Azərbaycanda yerli özünüidarəetmə orqanlarının mövcud fəaliyyəti və arzuolunan perspektivi ilə bağlı ciddi problemlər qalmaqdadır. Həmin problemləri aşağıdakı kimi sistemləşdirmək olar:

Birincisi, bələdiyyələr Azərbaycanda yeni təsisatlardır və yerli özünüidarəetmə təcrübəsinin olmaması obyektiv olaraq bir sıra çətinliklər ortaya çıxarır. İlk növbədə qeyd edək ki, 1999-cu il dekabrın 12-də keçirilən seçkilər ərəfəsində seçicilərdə yerli özünüidarəetmənin mahiyyəti haqqında məlumatın olmaması onların obyektiv seçim imkanlarını məhdudlaşdırıb və nəticədə bələdiyyələrə xeyli sayda təsadüfi adamların seçilməsinə gətirib çıxarıb. Bundan əlavə, yerli özünüidarəetmə təcrübəsinin olmaması bələdiyyə üzvlərinin seçildiyi andan öz səlahiyyətlərindən tam şəkildə istifadə etməsini çətinləşdirib və yeni idarəçilik vərdişlərinə yiyələnmə müəyyən qədər vaxt aparıb.

İkincisi, bələdiyyələrin fəaliyyətini nizama salan xeyli sayda normativ-hüquqi aktın qəbul edilməsinə baxmayaraq, bu sahədəki hüquqi bazanı tam təkmil hesab etmək olmaz. Bələdiyyələrin normal fəaliyyətinə mane olan bir sıra problemlər qanunvericilikdən irəli gəlir. Belə ki, mövcud qanunvericilik bələdiyyələrin fəaliyyəti ilə bağlı münasibətləri lazımi səviyyədə tənzimləmək gücündə deyil. Qəbul olunmuş qanunvericilik aktlarının bir sıra normaları deklorativ xarakter daşıdığından onların icrasını təmin etmək həmişə mümkün olmur. Mövcud qanunvericilik bələdiyyələrlə yerli icra hakimiyyətləri arasında səlahiyyətlər bölgüsündə də konkretlik müəyyən etməmişdir. Bələdiyyələrin maliyyə-iqtisadi əsasları, bələdiyyə mülkiyyəti, yerli vergilər və s. məsələlərlə bağlı münasibətləri nizama salan qanunvericilik aktlarında da bir çox normalar konkret xarakter daşımır. Həmin qanunlarda öz əksini tapan bəzi prinsipial məsələlər qeyri-myəyyən olaraq qalır. Qanunvericilik aktlarındakı ziddiyyətli normalar və mövcud boşluqlar da təcrübədə çətinliklər yaradır.

Üçüncüsü, bələdiyyələrin normal fəaliyyətinə mane olan digər ciddi problem bu qurumların maliyyə-iqtisadi əsasları ilə bağlıdır. Aparılmış müşahidələr və təhlillər göstərir ki, bu gün bələdiyyələrin tam işlək idarəetmə orqanlarına çevrilə bilməməsinin başlıca səbəblərindən biri məhz onların maliyyə-iqtisadi əsaslarının xeyli zəif olması ilə bağlıdır. Faktlar göstərir ki, bu gün əksər bələdiyyələrdə bələdiyyənin mülkiyyətində torpaqdan və cüzi əmlakdan başqa heç bir mülkiyyət yoxdur. Bəzi bələdiyyələrin isə ümumiyyətlə, öz balansında olan inzibati binası belə yoxdur. Bələdiyyələrə torpaq payı ayrılsa da, həmin torpaqlara mülkiyyət hüququnu təsdiq edən sənədlərin verilməsi ilə bağlı problemlər qalmaqdadır. Əksər bələdiyyələrdə yerli büdcənin de-

Doqquzuncusu, qəbul olunmuş bir sıra qanunların icrasının tam təmin olunmaması da problem olaraq qalmaqdadır. Müəyyən çatışmazlıqlara baxmayaraq, qüvvədə olan qanunvericiliyin tələblərinə əməl olunarsa, yerli özünüidarəetmənin həyata keçirilməsində ciddi uğurlar əldə etmək mümkündür.

Nəhayət, daha bir problem Azərbaycanda tətbiq edilmiş yerli özünüidarəetmə modeli ilə bağlıdır. Bu modelin bir çox üstünlükləri vardır. Bələdiyyələrə tam müstəqilliyin verilməsi və yerli özünüidarəetmənin birpilləliliyi bu modelin üstünlüyünü şərtləndirir. Lakin yerli özünüidarəetmənin çox kiçik inzibati ərazi vahidlərini əhatə etməsi, yəni ərazisi kiçik və əhalisinin sayı az olan məntəqələrdə də bələdiyyələrin təşkili təcrübəsi onu göstərir ki, həmin bələdiyyələr yerli ərazinin problemlərini həll etməkdə çətinlik çəkirlər. Çünki lazımi infrastrukturun olmaması, zəruri gəlir mənbələrinin yoxluğu və s. amillər yerli əhəmiyyətli məsələləri təkcə həmin bələdiyyənin gücü ilə həll etməyə imkan vermir. Problemi aradan qaldırmaq üçün mövcud yerli özünüidarəetmə modelinin yenidən nəzərdən keçirilməsinə ehtiyac var.

Hesab edirik ki, yuxarıda göstərilən problemlərin mövcudluğu Azərbaycanda yerli özünüidarəetmənin perspektivi ilə bağlı bədbin proqnozlar üçün hələlik əsas vermir. Lakin problemlərin aradan qaldırılması üçün sistemli fəaliyyətə və təxirəsalınmaz tədbirlərə ehtiyac var. Əks halda, Azərbaycanda yerli özünüidarəetmənin zəruriliyi ilə bağlı cəmiyyətdə yenidən diskussiyaların başlamayacağına təminat yoxdur. Belə disskussiyalar isə demokratik dəyərlərin inkişafı baxımından arzuolunmazdır.

**«Mülki Cəmiyyətə Doğru» Mərkəzin ekspert qrupu**